

# Bərdə: itirilmiş şöhrət qaytarılır

❐ ***Bu günə kimi bərdəli fermerlər pambıq tarlalarından 22630 ton "ağ qızıl" toplamışlar. Bunun 20615 tonu maşınlarla yığılmışdır. Elə bu məqamda bir statistikaya ehtiyac var. 2015-ci ildə Bərdədə 3292 ton, 2016-cı ildə 6925 ton, 2017-ci ildə isə 22402 ton pambıq tədarük edilmişdir. Dinamika göz qabağındadır və söhbət, hər şeydən əvvəl, son illər bu vacib strateji sahəyə göstərilən diqqət və qayğıdan gedir.***

Sözsüz ki, ildən-ilə artan bu rəqəmlərlə də bərdəliləri təəccübləndirmək mümkün deyil. Ən azı ona görə ki, ötən əsrin 70-80-ci illərində xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə burada 100 min tondan çox pambıq yığılırdı. Başqa sözlə desək, Bərdə keçmiş sovetlər ittifaqında ən böyük pambıq istehsalçısı adını şərəflə daşıyırdı. Lakin təəssüf ki, sonrakı illərdə bu qiymətli məhsul və gəlirli sahəyə diqqət azaldı, istehsal aşağı düşdü.

Son illər isə vəziyyət tamamilə dəyişdi. Dövlət səviyyəsində aqrar sahəyə, xüsusilə pambıqçılığa göstərilən diqqət, bu istiqamətdə imzalanmış sərəncamlar sahənin sürətli inkişafına gətirib çıxarmışdır. Əgər təkcə Bərdə rayonunu misal göstərsək, deməliyik ki, burada pambıq əkini sahələri dəfələrlə artmışdır.

İndi noyabr ayının ortalarıdır. Bu, əsasən yığımın surətinin aşağı düşməsi, tarlalarda məhsulun azalması dövrüdür. Lakin biz bu günlərdə rayonda pambıq yığımının gedişi ilə tanış olarkən, fermerlərlə, kənd adamları ilə görüşüb söhbət edərkən şahidi olduq ki, tarlalarda hələ məhsul çoxdur və yığımın surətində də gerilik yoxdur.

Öyrəndik ki, rayonun Mustafaağalı, Dəymədağlı, Nazırlı, Məmmədli, Lənbəran, Təhlə kəndlərinin ərazisində daha çox məhsul toplanmışdır.

Cari mövsümdə yüksək məhsuldarlığa nail olmuş fermerlərin adlarını soruşduq. Dəymədağlı kəndindən Elman Kərimovun, Qaradəmirçi kəndindən Habil Əliyevin, Əyricə kəndindən Nicat Məmmədovun və başqalarının adları-nı fərəhlə çəkdilər.

Belə qabaqcıl fermərlərdən biri ilə – Qaratəpə kəndində Zülfiyyə Mehralıyeva ilə iş üstündə görüş-dük. Artıq son hektarların məhsulu yığılırdı. O, işlərin gedişi, əldə olunan nəticələr barədə həvəslə məlumat verdi:

– Bu il 15 hektarda məhsul yetişdirmişdik. Səpin və becərmə tədbirlərini vaxtında və keyfiyyətlə apardığımızdan yığıma da erkən başladıq. Nəticə isə gözlədiyimizdən də artıq oldu. Belə ki, son günlərin rəqəmlərini də nəzərə alsaq, hər hektarın məhsuldarlığını 48 sentnerə çatdırmışıq. Kollektivimizin üzvləri qərara alıblar ki, gələn il pambıq əkini sahələrini xeyli artıraq. Bunun üçün isə hər bir imkanlarımız var. Əvvəla, torpaq ehtiyatımız var.

Digər tərəfdən, pambıqçılığa göstərilən diqqət və qayğı, bu strateji məhsulun satış qiymətlərinin artırılması bizdə böyük maraq oyadıb. Daha doğrusu, yaxşı bilirik ki, aylarla çəkdiyimiz zəhmət hədər getmir. Bol və keyfiyyətli məhsul isə aydın məsələdir ki, dah çox qazanc və gəlir deməkdir.

**Rafiq Abdullayev rayonun qabaqcıl kombayınçılarından hesab olunur. İndiyə qədər 500 hektarın məhsulunu toplayıb. Bu isə 1500 ton "ağ qızıl" deməkdir. Söhbət zamanı Rafiq bildirdi:**

– Tarlalara 36 pambıqyığan kombayn çıxarılıb. Ümumiyyətlə, 170 müxtəlif adda maşın-mexanizm məhsul yığımına cəlb edilib. Sahələr maşınla yığıma yaxşı hazırlandığından, yarpaqlar vaxtında töküldüyündən ilk günlərdən yüksək sürət götürə bildik. Yeri gəlmişkən, deyim ki, müasir pambıqyığan kombaynlar əvvəlkilərdən xeyli fərqlənir. Həm idarəetmə, həm məhsuldarlıq, həm də yanacağa qənaət baxımından üstündür. Elə ona görədir ki, biz gündəlik normanı 2-3 dəfə artıq yerinə yetirdik.

Bərdədə pambıq qəbulu ilə əsasən iki emal müəssisəsi məşğul olur – "MKT İK" MMC-nin və "Azərpambıq"ın Bərdə filialları. Fermerlərlə, kənd adamları ilə görüş və söhbətlər, tarla-emal müəssisələri arasında yaranan işgüzar münasibətlər bir daha onu göstərir ki, burada hər şey qarşılıqlı əlaqə və birgə səy əsasında qurulub. Başqa sözlə desək, hər iki tərəf müqavilə şərtlərinə dəqiqliklə əməl edir.

**Müsahibimiz "MKT İK" MMC Bərdə filialının direktoru Mehman Abdullayevdir.**

– İlin əvvəlindən 1024 nəfərlə 3532 hektar üçün müqavilə bağlamışıq. Gördüyünüz kimi, indi məhsul yığımının sonudur. Bu günə kimi heç bir narazılıq və fikir ayrılığı olmamışdır. Təhvil verilən pambığın pulu gecikdirilmədən ödənilir. Bu isə pambıqçılığa olan həvəs və marağı xeyli artırır. Əgər söhbət builki mövsümün nəticələrindən gedirsə, deməliyik ki, həm biz razıyıq, həm də fermerlər. Deməli, yaxın illərdə pambıq istehsalını daha da artırmaq üçün real imkan və şərait mövcuddur.







Yeri gəlmişkən, qeyd etmək yerinə düşər ki, son illər Bərdədə təkcə pambıqçılıqda yox, kənd təsərrüfatının digər sahələrində də dinamik inkişaf əldə edilmiş, ümumi məhsul istehsalı artmış, məhsuldarlıq yüksəlmişdir. Bəzi xarakterik fakt və rəqəmləri bir daha yada salaq.

Cari ilin ötən ayları ərzində rayonda 158,9 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da keçən ilin eyni dövründəkindən 6 faiz çoxdur. Ümumiyyətlə, bu il 9 min 630 hektar sahədə pambıq, 406 hektarda şəkər çuğunduru, 1104 hektarda bostan məhsulları, 2 min 533 hektarda tərəvəz, 192 hektarda kartof və s. yetişdirilmişdir. 13 min 858 hektar sahədən 56112,0 ton, keçən ildəkindən 2,6 min ton çox taxıl istehsal edilmişdir. Hər hektardan orta hesabla 40,5 sentner məhsul yığılmış-dır. Buğdanın məhsuldarlığına görə rayon respublika üzrə ikinci yerdədir.

Bərdədə pambıqçılığa dair keçirilən regional müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər edilmiş, pambıq sahələrində yüksək məhsul yetişdirilmişdir. 10 min 450 nəfər təkcə pambıqçılıqda işlə təmin olunmuşdur.

İndiyədək rayonda 11 min ton çuğundur, 26 min tondan çox bostan məhsulları, 8,5 min ton pomidor-xiyar, 2,3 min tondan çox kartof və s. istehsal edilmişdir.

Cari ildə 219 nəfər kümçü 24 min 533 ton barama istehsal edərək proqnoza 116,8 faiz əməl etmişlər. Bu isə 2017-ci ildəkindən təqribən 2 dəfə çoxdur.

Biz bu yazıda kənd təsərrüfatı işlərinin gedişindən, bu sahədə əldə edilmiş uğurlardan, konkret nəticələrdən danışdıq. Bura sənaye, tikinti-abadlıq və quruculuq, o cümlədən mədəni sahədəki inkişaf və yüksəlişi, təşkilat-idarəetmə, iş üslubu və metodlarında qazanılmış zəngin təcrübəni və s. də əlavə edə bilərik. Başqa sözlə desək, Bərdədə sosial-iqtisadi və mədəni sahələrin inkişafına kompleks münasibət formalaşmış, sistemli və ardıcıl icra intizamı yaradılmışdır. İnsan amili, onun vacib sosial ehtiyaclarının vaxtında və həssaslıqla yerinə yetirilməsi daim diqqət mərkəzindədir. Bu isə əldə edilmiş uğurların əsas şərtlərindən biri olmaqla yanaşı, gələcəkdə daha böyük inkişaf və yüksəlişdən xəbər verir.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***